

Mirmehdi Ağaoğlu

# İşıq

**(Hekayə)**

**(əvvəli ötən sayımızda)**

***Dənizqırağı qəsəbədə böyümüş anasının tez-tez danışdığı bu əhvalatları bütün detallarına qədər əzbərləmişdi. O uzaq keçmişdə anasının yaşadığı və onun uşaq vaxtı xalası, dayısı uşaqlarıyla qaçdı-tutdu oynadığı evin arxa tərəfinə bitişik çardağın altında həmişə içi Süleyman peyğəmbərin süfrəsi kimi balıqla dolu çəllək varmış və evdə heç nə olmayanda belə anasıgil arxayınmış, yavanlıq üçün də olsa, o çəlləkdə hər zaman duzlu balıqlar yan yatıb onların yolunu gözləyir. O illərin dadı damağından getmədiyi üçünmü, ya başqa səbəbdən, anasının sevimli yeməyi həmişə bir qurc şor balıq olmuşdu, dünyanın ən dadlı yeməyindən də əzizdi ona bir qurc şor balıq. O, isə balığı heç vaxt sevmədi, ölkənin adı çəkiləndə mütləq balıq da yada düşən rayonundan olsa da, heç vaxt sevə bilmədi bu "varlı-pullu" məxluqu hər dəfə yeyəndə tığı boğazında qaldı.***

– Xıxxxx.

– Noldu? Çörəyin qırağından ye, – balığın sümüyünün boğazında qaldığını görən anası dərhal məşhur türkəçarəsini dilə gətirdi və çörəyin qırağından kəsib uşağına uzatdı, – çörəyin qırağını ye, sümüyü sıyırıb aparsın.

– Kıxxxx... Keçdi, – anasından aldığı çörəyi çeynəyib uddu, – narahat olma.

– A bala, kürüsünü ye, deyirəm də, – tabağa əlini uzadıb sıraları seyrəlmiş balıqların içində axtarışa başladı, – buranın balıqlarında kürü olmaz, heyif deyil bizim balıqlar. – Məsələ kürüdə deyildi, anasına lap Baykalın göz yaşı kimi təmiz sularında üzən qızıl balığını da versən, bəyənməyəcəkdi, yenə rəhmətlik atasının qara ağızlı çəlləyində duzlanan çapaqdan istəyəcəkdi. – Nəhayət tapdığı kürülü külməni oğlunun qabağına qoydu.

– Yemirəm, doydum.

– Nə yedin ki, kürüsü var bunun, çək dişinə. Az qalıb, kartof da qızarır.

Ayağa durub tavanın qapağını götürdü. Qapağı qaldıranda buğla qarışıq qızarmış kartof ətri də mətbəxə yayıldı. Ona elə gəldi ki, anası "kartof" sözünü dilə gətirməsəydi kartof qızartdığını unudacaqdı.

– Bayaq heç demədin, bibimgil necədirlər? – kürüyə duz-istiot vurub dişlədi.

– Yaxşı olarlar.

– Baxma, bütün günü telefonda danışarsız, sən bikar, o bikar.

– Yox, ay bala. Evin işlərindən vaxt olmur. Səhər durub dədəni yola salıram, evəşiyi yığışdırıram, bir də gözümü açıram ki, qaranlıq düşüb. – Anası, tavanı qarışdırıb narazı-narazı bir ah çəkdi. – Bibin deyir gəlin niyə doğmur?

– Bibimin köhnə mahnısıdı. – Anasının qoyduğu balığın qabırğasının sümüklərini ayıra-ayıra dedi.

– Bibin düz deyir, a bala. Mən utanıram, gəlinlə də bu barədə danışmağa, üzüm gəlmir.



– Hər şeyin vaxtı var.

– Böyük sözünə qulaq asarlar. Ayrı yaşayırsız, sözüm yoxdu, ancaq...

– İlahi şükür. Sağ ol, ana, yeməyin çox dadlı idi.

– Nə yedin ki! Bircə dəqiqə səbir elə, az qalıb, bişir, isti-isti yeyərsən.

– Yox, doydum. Həm də gedəsi yerim var, tələsirəm.

– Atanın gələn vaxtıdı.

– Onu gözləsəm gec olar, – deyəsən, işıq ucu vardı, iş yoldaşlarından birinə zəng vurub əlborcu istəyə bilərdi. Tez getsə yaxşıydı, işdən çıxan vaxtı metroda tutardı.

– Neynək, özün bilərsən. Gözlə, gedim turşu gətirim həyətdən. Sən kartofa bax, dibi yanmasın.

Anası növbəni yoldaşına ötürən əsgər canfəşanlığı ilə tapşırığını da verib çərçivəsi əyri qapıya tərəf döndü:

– Bıy, başıma xeyir!

– Noldu?

– Buranın da lampası yandı? – Anası məlumatı sual formasında çatdırdı. O, qəza yerinə yığışan izdiham marağı ilə gəlib qapının ağzında dayandı.

– Lap möcüzədi, – oxuduğu kitabların təsirindən daha möcüzələrə inanmasa da, təəccübünü ifadə etməyə başqa söz də tapmadı.

– Allah xeyir eləsin. – Anası qarnının üstündə qoşalaşdırdığı əllərini bir-birinə çırpdı və dərhal da qarğışa keçdi. – Gözləri çıxsın elə.

***– Kimin?***

***– Nə bilim? Neçə gündü svarka edən kimdi?***

***– Ana... – Bir qədər pauza verdi, bilmədi, sözünü necə gətirsin, pulunun olmadığını kimə desən etiraf edərdi, bəlkə, başqa vaxt bunu anasına da deyərdi, indi isə çəkinirdi, utanırdı.***

***– Ay bala, darıxma, atan gələr, deyərəm alıb bağlıyar.***

***– Pulu var?***

***– Hə, anası dedi və o dəqiqə əlavə elədi, – yəqin, bu gün alveri olub.***

– Onda mən gedim? – Özünü əlifba kitabından oxuduğu nağılın qəhrəmanı – ayı gələndə dostunu təhlükədə qoyub qaçan qorxaq oğlan kimi hiss elədi.

İkisi də çərçivəsi əyri qapının ağzında dayanıb nə isə axtarırmış kimi o bir ucu qaranlığın içində əriyib yox olan dəhliz-otağa baxırdılar.

– Yaxşı, mən gedim. – Əlini asılqana apardı.

– Dayan, turşu gətirim həyətdən.

– Ehtiyac yoxdu.

– Uşaqlar yeyər.

– Dəysin, sonra apararam, – geyinə-geyinə dilləndi, tezcə buralardan uzaqlaşmaq istəyirdi.

– Özün bil, mən payımı qoyurdum. – Dördgöz tərəfə gedib tavanı qazın üstündən çəkdi, – kartof da hazırdı, bişib.

– Yemirəm.

– Onda, bala, əziyyətdən keçib, sən bu lampanı aç, – başı ilə mətbəxin kəpənək formalı lüstrını göstərdi, bağla içəri otağa. Mənim, onsuz, daha burda işim qalmayıb. Yeməyi də bişirdim. Nəsə lazım olsa da, qazın işığına görərəm.

O, bir ayağına geydiyi ayaqqabı tayını çıxarıb bayaq anasının oturduğu stulun, ordan da masanın üstünə çıxdı.

– Dayan, işığı söndürüm.

Gözlədi, qaranlıq yenə stolun altından, şkafların, soyuducunun arxasından çıxıb mətbəxi ələ keçirdi, bu dəfə o özü də zülmətin ordusundaydı.

– Gələ dəsmalla aç, isti olar.

Dəsmalı anasından alıb qaynar lampanı ehtiyatla açdı ki, içi tökülməsin, Allahlardan oğurladığı odu sönməyə qoymayan Prometey ehtiyatı ilə lampanı dəsmalın içindəcə çərçivəsi əyri qapıdan içəri apardı. Gözü qaranlığa alışdığından dəhliz-otağın çılçırağını tapmaq çətin olmadı, göztəpək sayıqlığı ilə stul qoyub dırmaşdı, köhnə lampanı açdı...

– Ana, mən getdim, – ayaqqabısını geyindi, mətbəxin ortasında dayanıb dördgözdən qalxan mavi alov dilimlərinin ətrafa yaydığı sayrışan incə kölgələrin arasında gah görünüb, gah da yox olan anasına baxdı. – Ataya salam deyərsən.

– Yaxşı, bala. Sən də nəvəmi çoxlu öpərsən. Gəlinə də salam de.

– Bu da yansa, heç zad, – başı ilə işıq gələn tərəfə işarə elədi, sonra lampanın işləyib-işləmədiyini yoxlayırmış kimi gözlərini qıyıb işığa zilləndi, – inşallah yanmaz, – gözləri qamaşdı.

– Allah eləməsin, bala. – Səs gələn tərəfə çevrildi, anası qaranlıqdan seçilmirdi.

– Xudafiz.

Köhnə dəmir qapını itələdi, qapı xəstəhal cırıltı ilə əsnəyib yuxudan oyandı. Çölə çıxıb qapını örtdü.

***Kandarda bayaqkı pişik anasının tökdüyü sür-sümüyü xırçıldadırdı. Anasının bu dar macalda imkan edib süfrəni yığışdırmağına lap məəttəl qaldı, gözündən yayınıb nə vaxt yediyinin artıqurtuğunu qapının ağzına tökmüşdü, anlaya bilmədi. Pişik onu görüb kefini belə pozmadı, qonşunun pəncərəsindən xoş səda kimi yayılıb qapılarına zollanan parlaq işıq selində kəpənək zərifliyi ilə oynatdığı sarı bığları aydın sezilirdi. Bayaq onun çeynəyib atdığı balığın başını iştahla marçıldadırdı.***

***Bir qədər aralanıb qonşunun pəncərəsi ağzında dayandı. Heysiz əllərini cibində gəzdirib siqaret çıxardı, alışdırdı. Qaranlığın içində birdəfəlik itməmişdən qabaq geri dönüb məyusluqla köhnə qapılarına baxdı.***

***Ona elə gəldi ki, qapı, həqiqətən, dalıyca dilini çıxarıb onu lağa qoyur.***